# BDU müəlliminin "açıq dərs"i

Bakı Dövlət Universitetinin müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru, Avropa Təbii Elmlər Akademiyasının həqiqi üzvü Sevinc Rəsulovanın universitetin filologiya fakültəsinin professor-müəllim heyətinin, tələbələrin, Bakı şəhər 53 nömrəli tam orta məktəbin müəllim və şagirdlərinin iştirakı ilə "açıq dərs"i olub. "Açıq dərs" metodist alim Sevinc Rəsulovanın təşəbbüsü ilə Filologiya fakültəsinin təcrübə keçən IV kurs tələbələri üçün təşkil edilib. Bu "açıq dərs"in keçirilməsində müəllimin məqsədi "Ümumi təhsil kurikulumunun əsasları" fənnini elmi-nəzəri cəhətdən öyrətdiyi tələbələrə öz pedaqoji ustalığını nümayiş etdirmək, onların özlərinə qarşı məsuliyyətlərinin artmasına, elmi-metodiki-praktik bilik və bacarığa yiyələnmələrinə ciddi həvəs yaratmaqla gələcəyin savadlı, səriştəli müəllimlərini yetişdirməkdir. "Açıq dərs"də belə bir fikir də vurğulandı ki, pedaqoji kadr hazırlığı istiqamətində edilmiş bu təşəbbüsün gələcəkdə ənənəyə çevrilməsi daha yaxşı olardı. Bundan sonra Sevinc Rəsulova 6-cı sinifdə Məmməd Namazın "Hamının günəşi" mövzusunda "açıq dərs"ə başlayıb. Dərsin mərhələlərlə təşkili, fikirlərin elmi və məntiqi ardıcıllığı, dilin aydınlığı, müasir texniki vasitələrdən istifadə, dərsə verilən tələblərə yüksək səviyyədə əməl olunması dinləyənlərin müsbət rəyinə səbəb olub. Sonra çıxışlar olub. Çıxış edənlər "açıq dərs"in əhəmiyyətindən, məziyyətlərindən, müəllimin pedaqoji ustalığından danışaraq dərsi yüksək qiymətləndiriblər. Həmin "açıq dərs" haqqında təsəvvür yaratmaq, gənc müəllimlərə metodiki köməklik etmək məqsədilə 6-cı sinifdə Məmməd Namazın "Hamının günəşi" mövzusunda "açıq dərs" nümunəsini oxucularımıza təqdim edirik.



*Mövzu:* M.Namaz "Hamının günəşi".

*Standartlar:*

1.2.2. Bədii əsərlərdəki qəhrəmanları davranış və əməllərinə görə səciyyələndirir.

1.2.4. Bədii əsərlərin mövzusunu, ideyasını şərh edir, əsaslandırılmış münasibət bildirir.

1.1.1. Heca vəznli şeirlərdə və sujetli bədii nümunələrdə (əfsanə, nağıl, dastan, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətdən, sorğu kitablarından istifadə etməklə izah edir.

*Təlim nəticəsi:*

1. Əsərdəki əsas obrazları səciyyələndirir və münasibət bildirir.
2. Əsərin ideyasını müəyyən edir, fikirlərini əsaslandırır.
3. Mətndəki tanış olmayan sözləri seçir və mənasını izah edir.

*İnteqrasiya:* Tarix, musiqi, diyarşünaslıq, Azərbaycan dili.

*İş forması:* Kollektiv iş, qruplarla iş.

*İş üsulu:* Əqli hücum, müzakirə, şaxələnmə.

*Resurslar:* Texniki təlim vasitələri, iş vərəqləri, dərslik, marker.

*Dərsin gedişi.*

*Motivasiya:* Mövzuya uyğun slayd göstərilir, müzakirə üsulu ilə sual-cavab aparılır.




Müzakirə nəticəsində mövzunun adı şagirdlərdən alınıb, elan edilir.




Şagirdlər qruplara bölünür, lider seçilir, qruplara üzvləri tərəfindən adlar verilir. Mətn qrupların sayına uyğun bölünərək yazılı şəkildə şagirdlərə təqdim edilir, müzakirələr əsasında əsərin mövzusu, ideyası və yeni sözlər müəyyənləşdirilir.




Vətənimizin azadlığı uğrunda canını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilir.

Heydər Əliyevin xüsusiyyətləri sadalanır, şaxələnmə üsulu ilə bir tapşırıq aparılır.




Qruplara iş vərəqləri verilir, tapşırığın şərti və vaxt elan edilir. (Hekayədəki şeirin müəllifi, şair M.Arazın şəkli və N.Musayevin ifasında "Dünya sənin, dünya mənim, dünya heç kimin" mahnısı səsləndirilir).




*Məlumatın mübadiləsi:* Tapşırıqlar təqdim olunur.

*Məlumatın müzakirəsi:* Cavablar müzakirə olunur, əlavələr varsa edilir.

Lövhəyə Heydər Əliyevin şəkli gətirilir və ətrafında şaxələr çəkilir, şagirdlər onun kəlamlarını səsləndirir və şaxələrə yazırlar.



*Nəticənin çıxarılması və ümumiləşdirmə:*

Təlim nəticələrinə nəzər salınır. Mövzu ümumiləşdirilir.

Şagirdlərə kriptoqram verilir. Kriptoqramdakı rəqəmlərin hər birinin altında müvafiq hərflər var. Şagirdlərə ayrıca hazırlanmış rəqəmlər verilir. Onlar rəqəmləri kriptoqramın üzərindən götürür. Rəqəmlər tam açıldıqda ulu öndərin "Azərbaycan dünyaya günəş kimi doğacaq" kəlamı oxunur.




Vətənpərvərlik mövzusunda suallar verilir, müasir dövrlə əlaqələndirilir.

Heydər Əliyevin "Azərbaycan" şeirini deməsi nümayiş etdirilir.

*Yaradıcı tədbiqetmə:* Qruplara tapşırıq verilir. Cavablar təqdim olunur.




Qiymətləndirilmə aparılır.




Ev tapşırığı verilir.




Sonda ulu öndər Heydər Əliyevin xatirəsi yad edilir, virtual olaraq onun məzarı önünə əklil və qərənfillər düzülür.



Müəllim və şagirdlər tezliklə çalacağımız qələbə arzularını dilə gətirərək, Azərbaycan bayrağının rənglərinə uyğun rəmzi lentləri "Arzular ağacı"na bağlayırlar.

